Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi;**

# Regionlarda iqtisadi fəallaşma bütün ölkə üzrə artıma təsir göstərir

**Regionların sosial-iqtisadi inkişafı əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasının mühüm prosesidir. Sosial-iqtisadi inkişafın prioritet hədəflərinə ümumi regional məhsulun artımı, əhalinin gəlirlərinin yksəlməsi, doğum səviyyəsinin, gözlənilən ömür uzunluğunun, səhiyyənin, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, regionda ekoloji vəziyyətin yüksəldilməsi və digər belə vacib məqamlar daxildir.**

Bu, həm də müasir dövrdə dünya ölkələrinin hamısı üçün xarakterik olan urbanizasiya probleminin qarşısının alınması üçün zəruri önəm kəsb edir.

**Bölgələrdə tərəqqi urbanizasiya probleminin həllinə əlverişli zəmin yaradır**

Regionlar Azərbaycanda təkcə inzibati-ərazi quruluşunun deyil, həm də ölkənin bütün iqtisadi sisteminin tərkib hissəsidir. Təbii-coğrafi, sosial-iqtisadi, demoqrafik və digər xüsusiyyətləri ilə müəyyən edilən məhsuldar qüvvələrin məcmusunu təmsil edən regionlar milli miqyasda iqtisadi inkişafın mərkəzi halqasıdır. Ölkəmizdə hər bir ayrı-ayrı region ümumi ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verir.

Regionların sosial-iqtisadi inkişafı dövlət maraqlarının məcmusundan həmişə aktual və prioritet istiqamət kimi seçilib və sbundan sonra da eçiləcək, çünki hər bir region vahid dövlətin tərkib hissəsi olmaqla onun tarixinə, daxili siyasi, iqtisadi, mədəni həyat, beynəlxalq aləmdə müəyyən nəticələrin əldə edilməsinə mütləq şəkildə öz töhfəsini verir. Bölgələrin təsərrüfat fəaliyyətinin onların ərazilərinin məhsuldar qüvvələrinin qarşılıqlı təsiri yolu ilə təşkili isə ölkənin vahid təsərrüfat kompleksini yaradır. Məhz regionlarda iqtisadi həyatın aktivləşməsi bütün ölkə üzrə iqtisadi artım meyllərini müəyyən edir.

Beləliklə, aydındır ki, regionların sosial-iqtisadi inkişafı konsepsiyalarının hazırlanması ilə bağlı problemlərin tədqiqi onların daxilində mövcud olan resurslardan istifadənin optimallaşdırılmasına və hər bir regionun inkişafının əsas prioritetlərinin seçilməsinə yönəldilib. Azərbaycanda regionların inkişafı istiqamətində həyata keçrilən dövlət proqramları bunların praktiki təzahürüdür. Burada o da nəzərə alınır ki, iqtisadi tərəqqi, bir qayda olaraq, sosial sahənin inkişafı üçün ilkin şərtlər yaradır. Buna görə də sırf iqtisadi xüsusiyyətlərlə yanaşı, regionlarda inkişafın sosial göstəriciləri də nəzərə alınır ki. Bu da istənilən bölgədə iqtisadiyyatın inkişaf dərəcəsinin qiymətləndirilməsində heç də az əhəmiyyət kəsb etmir. Regionların inkişafındakı irəliləyişlərə həm iqtisadiyyat, həm də sosial sahə nöqteyi-nəzərindən baxmaq lazımdır. İnkişafda sosial aspekt iqtisadi artım məqsədlərini sosial inkişafın prioritet vəzifələrinə tabe etməkdən ibarətdir. Məhz bu halda Azərbaycan regionların tərəqqi göstəricilərini daha da yüksəltməyə, eyni zamanda urbanizasiya problemini səmərəli şəkildə həll edəcəyini qəbul edir. Azərbaycanın yeni strateji inkişaf mərhələsində milli iqtisadiyyatın rəqabətqabiliyyətinin, innovasiya yönümlülüyünün və maliyyə dayanıqlılığının gücləndirilməsi, iqtisadi artımın dayanıqlı olması üçün kənd və şəhərlər arasında inkişaf balansının artırılması hədəflənir. Hesablamalara əsasən, hazırda dünya əhalisinin 55 %-i şəhərlərdə yaşayır. 2050-ci ilə qədər bu rəqəm 70 %-ə çatacaq. Bu vəziyyətdə həm şəhər, həm də kənd əhalisinin həyatını yaxşılaşdırmaq üçün inteqrasiya olunmuş siyasətlərə ehtiyac var. Məqsədlərə nail olmaq üçün atılan addımlar nəticəsində ölkəmizdə şəhərlə kənd yerləri arasında yaşayış standartları arasındakı fərqlər azaldılacaq. Xüsusən də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdış fonunda "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyaları həm də buna xidmət edir.



**Regionların iqtisadiyyatının şaxələndirilməsi müsbət nəticələrini verir**

Ölkəmiz üçün əsas məsələlərdən biri də regionların iqtisadi və təbii potensialında səmərəli istifadə edilməsidir. Bu səpkidə də Azərbaycanda zəruri addımlar atılır. Xüsusən də Azərbaycanın uzunmüddətli inkişaf modelinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə müasir istehsal infrastrukturunun yaradılması, yeni texnologiyaların tətbiqinə yönəlmiş investisiyaların cəlb edilməsi, bölgənin potensialının effektiv reallaşdırılması əsas hədəfdir.

Regionların iqtisadiyyatının ən mühüm xüsusiyyətlərindən biri onların təbii coğrafi amillə sıx bağlı olmasıdır. Hər bir bölgənin müəyyən təbii sərvətləri vardır ki, bu da əsasən onun iqtisadi istiqamətini müəyyən edir. Resursların mövcudluğu, onların həcmi, torpağın keyfiyyəti, təbii-iqlim şəraiti, yerləşməsi region iqtisadiyyatında əsas rol oynayır. Faydalı qazıntıların mövcudluğu zəngin təbii sərvətlərə malik olan Azərbaycan regionlarının inkişafında daha  əlverişli vəziyyət yaradır. Bu fonda həyata keçirilən dövlət proqrmaları regionların malik olduğu zəngin maddi sərvətlərdən və əmək ehtiyatlarından istifadə etmək əsasında qeyri-neft sektorunun mühüm sahələrinin inkişafının sürətləndirilməsinə gətirib çıxarıb.  Eləcə də  sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, əlverişli investisiya mühitinin yaradılmasına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, yeni iş yerlərinin yaradılmasına və yoxsulluğun azaldılmasına nail olunub. Bu zəruri tədbirlərin həyata keçirilməsi ilə regionlarda məhsuldar qüvvələrin ümumi artım imkanları əsaslı surətdə genişləndirilib. Təbii sərvətlər və ətraf mühit şəraiti ilə yanaşı, regionların inkişafında əhali faktoru da mühüm rol oynayır, çünki insan sosial sərvətin əsas yaradıcısıdır. Regionlrın da tərəqqisi bu mənada əhalinin sayından, onun əmək qabiliyyətli hissəsindən asılıdır, bu, iqtisadi inkişafı şərtləndirən amildir. İstehsal vasitələri, sənaye və sosial infrastruktur olmadan da inkişaf mümkün deyil. Buna görə də həm regionun, həm də ölkənin inkişafı üçün milli iqtisadiyyatın sahələrinin sənaye və kənd təsərrüfatı məhsulları istehsal etmək, investisiya qoyuluşunu həyata keçirmək üçün ümumi imkanlarından səmərəli istifadə zəruri önəm kəsb edir. Bu istiqanətdə ölkəmzin uğurunu işğaldan azad edilmiş ərazilərdə görülən işlər əyani surətdə nümayiş etdirir. 30 ilə yaxın dövrdə erməni vandalizminə məruz qalaraq xarabalığa çevrilmiş Qarabağ və Şərqi Zəngəzur özünün yeni dövrünə qədəm qoyub. Azad edilmiş ərazilərimizin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bunlar həm də Azərbaycan regionlarının uğurlu tərəqqisinin mühüm bir göstəricisinə çevrilib.

*Ramil QULİYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**